**Kamran İmanov**

# İnnovasiya və yaradıcılıq naminə müəllifliyin dəstəklənməsi

**Bakı – 2024**

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri.

**İnnovasiya və yaradıcılıq naminə müəllifliyin dəstəklənməsi. Bakı, 2024**

Bu kitabça Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun 26 aprel 2024-cü il tarixində Əqli Mülkiyyət Agentliyinin 26 aprel – "Beynəlxalq Əqli Mülkiyyət Günü" münasibətilə "Əqli mülkiyyət müasir mərhələdə" mövzusunda keçirdiyi dəyirmi masada etdiyi "İnnovasiya və yaradıcılıq naminə müəllifliyin dəstəklənməsi" adlı giriş sözü və prezentasiya əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2024**

# Mündəricat


Giriş …….................................................................... 5

**İnnovasiya və yaradıcılıq naminə müəllifliyin dəstəklənməsi** .......................... 9

1. **Müəlliflik və “Sosium – Mədəniyyət" məkanı** ........................................................ 19

2. **Müəlliflik müəllif-hüquq məkanında** .......... 25

# GİRİŞ

Hörmətli dostlar, yüksək səviyyəli qonaqlar, əqli mülkiyyət sahəsində çalışan peşəkarlar, media nümayəndələri!

Aprelin sonu əqli mülkiyyət aləmində əlamətdar dövrdür – həmin günlər – UNESCO-nun elan etdiyi 23 aprel – “Ümumdünya kitab və müəlliflik hüququ Günü”dür və ÜƏMT tərəfindən dünya üzrə qeyd edilən 26 aprel – “Beynəlxalq əqli mülkiyyət Günü”dür. Bu əlamətdar günlərin təntənəli şəkildə qeyd olunmasında Azərbaycan artıq böyük təcrübəyə malikdir. 2001-ci ildən başlayaraq, 23 ildir ki, əqli mülkiyyətin təntənəli günləri bizim ölkədə keçirilir. Aprel ayı isə bizim tərəfdən əqli mülkiyyət ayı elan edilib və bir sıra tədbirlər həyata keçirilir. Ancaq bu ilki bayram günlərinin xüsusi əhəmiyyəti mövcuddur – ilk dəfədir ki, həmin günlər tam suverenliyini bərpa edən qalib xalqın və müzəffər millətin nümayəndələri, bütövlüyünü bərpa edən doğma Vətənimizin hər bir guşəsində qeyd olunur.

**Həmin istək və arzumuza nail olmaqda biz azərbaycanlılar Prezident İlham Əliyevin müstəsna rolunu, titanik fəaliyyətindəki “nəyi, necə, nə vaxt” etməsinin reallaşmasında milli ənənəmizdən qaynaqlanan** “ata vəsiyyətini yerinə yetirmək” təntənəsində görürük, ölkəmizin artan beynəlxalq nüfuzunda və söz sahibinə çevrilməsində, Azərbaycan ruhunun yüksəklərdə, başımızın ucalığında görürük, Azərbaycan xalqının cənab Prezidentə olan dərin ehtiram və sevgi duyğularında görürük, onun Prezident seçkilərində şəksiz qələbəsində – seçilməsində görürük.

Dövlət başçımızın 14 fevral 2024-cü il andiçmə mərasimindəki nitqinin sözləri ilə desək, “İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik

daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi".

**Hörmətli dostlar!**

Azərbaycanın son illərdə əldə etdiyi nəticələrin böyük təsiri kreativliyin, innovativliyin, təəssübkeşliyin inkişafında öz əksini tapır və bəhrələr verir.

Çünki, millətin ən dəyərli varidatı onun intellekt böyüklüyünü təşkil edən keyfiyyətlər xalqın nümayəndələrinin yaradıcılığı və yenilikçiliyi ilə bağlıdır.

Şəxsiyyətlərimizin yaradıcılığı və yenilikçiliyi təbii insan resursları olmaqla, əqli mülkiyyət yaratmaqla etnosun həm təbii-bioloji, həm də yaradıcı-mənəvi gücü, milli təbiət və torpaqla sıx bağlılığından irəli gəlir.

Bir neçə misal dediklərimizi təsdiqləyir.

2023-cü ildə 2022-ci illə müqayisədə müəllif hüququ obyektlərinin qeydiyyatına aid vəsatətlər 713 əsər olduğu halda (324 müəllif) 717 şəhadətnamə verilmişdir və bu, ötən illə müqayisədə 20% çoxdur. O cümlədən, "elektron xidmət" bölməsi vasitəsilə 324 müəllif (hüquq sahibi) tərəfindən 626 əsər qeydiyyatdan keçirilmişdir. 2022-ci ildə elektron qaydada 131 müəllifə məxsus 169 əsər qeydiyyata alınmışdır, bu da 2022-ci il ilə müqayisədə 73% çoxdur. Üstəlik, əlaqəli hüquqların obyektləri üzrə 162 ifa (2022-ci ildə 46 ifa) və 37 kompüter proqramı (2022-ci ildə 18) qeydiyyata alınmışdır.

Sənaye mülkiyyəti sahəsində 2023-cü ildə ixtira, faydalı model və sənaye nümunələrinin patentləşdirilməsinə dair Agentliyə 302 iddia sənədi (2022-ci ildə 271 iddia sənədi) daxil olmuşdur. Bu isə ixtira fəallığının 11% artması deməkdir. Nəticədə ixtiraya aid 103, faydalı modelə aid 36 və sənaye nümunələrinə aid 12 patent qeydiyyata alınmışdır.

Əmtəə nişanlarının qeydiyyatı ilə bağlı daxil olan iddiaların sayı 3862 olmuşdur, o cümlədən ekspertizanın sürətli aparılması üçün 1474 vəsatət (2022-ci ildə 931).

**Gətirilən faktoloji statistika suverenliyimizin tam bərpası olduğundan kreativ ruhun yüksəlməsindən irəli gələn müəllif-hüquq, ixtira və iqtisadi təəssübkeşliyinin müsbət nəticələrinə dəlalət edir.**

Üstəlik, Agentliyin tətbiq etdiyi innovativ üsulların da əhəmiyyəti danılmazdır. Belə ki, müəllif-hüquq obyektlərinin qeydiyyatı tam elektronlaşdırılıb, sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı 24/7 rejimində PƏNAH rəqəmli sistemin tətbiqi nəticəsində iddiaçı ilə ekspertizanın və bu sahədə xidmət göstərən digər şəxslərin canlı təması aradan qaldırılmış, vahid pəncərə və istənilən yerdən xidmətə əlçatanlıq prinsipi əsasında operativlik və şəffaflıq təmin edilmişdir.

Belə ki, ixtiralar üzrə ekspertizanın müddəti ümumi qayda 12 ay təşkil etdiyi halda, 2023-cü ildə 8-9 ay müddətində aparılmış, MDB məkanında ilk olaraq, iddia sənədlərinin 3D-formatında qəbulu həyata keçirilmiş, hamıya əlçatanlığı təmin edən “açıq reyestr” prinsipi tətbiq edilmiş və mahiyyət üzrə ekspertiza müddəti orta hesabla 3 ay təşkil etmişdir (beynəlxalq təcrübədə 6-12 ay).

Xüsusi olaraq qeyd etməliyəm ki, əqli mülkiyyət mədəniyyətinin formalaşması, bu sahədə biliklərin və məlumatların artırılması Agentliyin xüsusi diqqətindədir.

Agentliyin dəstəyi və Azərbaycan Memarlıq və İnşaat Universitetinin köməkliyi ilə bu universitetdə “Əqli Mülkiyyət” kafedrası yaradılmışdır. Hazırda Universitetin müxtəlif fakültələrində **6** istiqamət üzrə Agentliyin mütəxəssisləri tərəfindən əqli mülkiyyət fənni tədris olunur, o cümlədən **54** qrup üzrə **290** tələbəyə bakalavr və **517** tələbəyə magistr səviyyələrində **1613** saat dərs keçilmişdir (yaradıcılıq və texniki ixtisaslar üzrə).

Bakı Dövlət Universitetinin Əqli Mülkiyyət Hüququ kafedrasının Agentliyin nəzdində daha əvvəl yaradılmış filialının fəaliyyəti isə əqli mülkiyyət sahəsində hüquqşünaslıq üzrə mütəxəssislərin hazırlanmasında əhəmiyyətli rol oynayır və bununla bağlı magistr səviyyəsində **15** məzuna və bakalavr səviyyəsində **404** tələbəyə 2020-2023-cü illərdə əqli mülkiyyət hüququna dair fənlər tədris olunmuşdur.

Tələbələr üçün mühazirə və məşğələlər Agentlikdə müasir avadanlıqlarla təchiz edilmiş SMART tipli auditoriyalarda keçilir.

Qeyd etməliyik ki, ÜƏMT müasir çağırışlara cavab verən milli əqli mülkiyyət ofislərinin yaradılmasına aid təlimatların hazırlanması məqsədilə dünya üzrə 204 ofis arasından 15 ölkənin mükəmməl idarəetmə strukturuna və inzibatçılıq mexanizmlərinə malik olan ofislərini seçərək, bu çərçivəyə Agentliyi də daxil edib. İndi isə Agentliyimiz aparıcılar sırasına seçilərək, ƏM-in gələcəyinə aid proqnozlaşdırma ilə bağlı sorğuda iştirak edir.

Bununla yanaşı, MDB məkanında fəaliyyət göstərən Avrasiya Patent Təşkilatı **(bundan sonra-APT)** əqli mülkiyyət sahəsində Azərbaycanın müsbət təcrübəsini nəzərə alaraq, "Müasir əqli mülkiyyət ofisinin formalaşması və fəaliyyəti" barədə geniş prezentasiya və məqalə sifariş edərək, onu Moskvada nəşr olunan tanınmış peşəkar **"Əqli mülkiyyət: Sənaye mülkiyyəti"** jurnalının xüsusi buraxılışında (2023, №5) dərc etdirmiş və APT-nin rəhbəri tərəfindən həmin təcrübədən geniş istifadə etmək tövsiyə olunmuşdur.

Azərbaycanda Dövlət başçımızın təşəbbüsü və səyləri nəticəsində əqli mülkiyyət sahəsində islahatlar Rusiya Hüquqşünaslar Assosiasiyasının təşəbbüsü ilə bir nümunə kimi qəbul edilərək, hökumətə bu nümunə əsasında təkliflər vermək qərarına gəlinib.

## İnnovasiya və yaradıcılıq naminə müəllifliyin dəstəklənməsi

**Hörmətli tədbir iştirakçıları!**

Bugünkü prezentasiyamızın mövzusu **"İnnovasiya və yaradıcılıq naminə müəllifliyin dəstəklənməsi"dir.** Mövzunun açar sözü **"müəlliflik"dir** və bu termin çoxmənalı olaraq şərh edilə bilər.

Məlum olduğu kimi, "müəlliflik" termininin sinonimləri kimi yazıçılıq, yaradılış, mənşə, başlanğıc, "inisiallaşdırma" və s. ola bilər. Terminoloji cəhətdən fərqli, lakin mənaca oxşar və çox vaxt eyni olan bu terminlər eyni anlayışı göstərir, yəni eyni leksik məna daşıyır. Semantik cəhətdən bu termin əsərin, elmi işin, layihənin, ixtiranın, mühəndis həllinin yaradıcısı mənasını bildirən müəllifin varlığını göstərir.

Bununla əlaqədar, **müasir ədəbiyyatda "müəlliflik" termininin mənası daha çox əsərin və ya ixtiranın müəllifə mənsub olduğunu müəyyən edir, daha doğrusu, yaradıcılıq fəaliyyəti nəticəsində elm, ədəbiyyat və incəsənət sahəsində yaradılmış əsərin, habelə kəşfin, ixtiranın qanun əsasında hər hansı şəxsə məxsusluğunu göstərir** (sxem 1).




Sxem 1

"Müəlliflik" üzərində şəxsi (mənəvi və ya qeyri-əmlak) hüquqlar olan obyektlər üçün müəlliflik hüququ və ya sənaye mülkiyyəti hüququ anlayışı konsepsiyası ilə müəyyən edilir, misal üçün müəlliflik hüququ qanunun şəxsi (qeyri-əmlak) hüquqlar arasında müəllifliyə (əsərin müəllifi kimi tanınmağa) subyektiv hüququnu nəzərdə tutur.

Xatırlatmaq yerinə düşərdi ki, müəlliflik həm də yaradıcı fərdin özünü tanıma, orijinal əsər yaratma qabiliyyəti kimi müəyyən edilir. Başqa sözlə desək, **müəlliflik, həm də fərdi töhfənin sosial-mədəni tanınması institutudur.**

Nəzərə alsaq ki, fərdin elm və mədəniyyətə olan hüquqları insan hüquqları çərçivəsində təmin edilir, bu tərif müəlliflik hüququ və olduğu halda müvafiq sənaye mülkiy-

yəti hüquqları anlayışından irəli gələn təriflərə bənzəyir, **lakin onlarla üst-üstə düşmür** (sxem 2).




Sxem 2

Həqiqətən də, əqli mülkiyyət nöqteyi-nəzərindən belə qəbul edilir ki, müəllifin intellektual məhsul yaratmaqda fəaliyyəti yaradıcılıqdır və buna görə də fərdi xarakter daşıyır. Müəllif-yaradıcının şəxsiyyətinin fərdi xüsusiyyətlərinin təcəssümü (qrup yaradıcılıq fəaliyyətində belə) əldə edilən yenilik, orijinallıq və s. kimi nəticənin fərdiliyində özünü göstərir.

Öz növbəsində, yaradıcılıq nəticəsinin fərdliliyi müəllif-yaradıcının fərdiliyinin hüquqi tanınmasına səbəb olur və müəlliflik anlayışını izah edir.

Müəlliflik, əldə edilmiş nəticənin yaradıcı xarakterinin hüquqi cəhətdən əhəmiyyətli faktı olmaqla, müəllifin fərdi yaradıcılıq nəticəsini öz yaradıcılıq əməyi, yoxsa ƏFN-nin yaradıcılıq nəticəsi olmasından asılı olmayaraq, müəllifə intellektual məhsulun ilkin hüquqlarının verilməsi üçün əsasdır.

Sivilistik doktrina yaradıcılığın müəyyən edilməsində iki yanaşma nəzərdə tutur: subyektiv və obyektiv yanaşma.

Birinci formatda yaradıcılığa tələblər müəllifin əməyinə olan tələblərdir. Əldə edilən ƏFN-də onun şəxsiliyinin, fərdiliyinin əks etdirilməsidir.

İkinci formatda isə diqqət müəllifin subyektiv-yaradıcı fəaliyyətinin xarakterinə deyil, ƏFN-nin yaradıcı xarakterinin olmasına əsaslanır. Burada müəyyən dərəcədə ƏM-in kontinental və anqlo-sakson hüququ arasındakı paraleli gətirmək olar, hansılarda ki, müvafiq olaraq yaradıcının şəxsiyyətinə və bilavasitə ƏFN-nə söykənmə prinsipi işlənilir (sxem 3).



Yaradıcı əmək
Yaradıcı əməyi ilə yaradılmış ƏFN-nin müəlliflləri:
müəlliflərinə tətbiq olunur
əsərlərin,
Ifaların,
Ixtiraların,
faydalı modellərin,
sənaye nümunələrinin,
seleksiya nailiyyətlərinin,
inteqral mikrosxemlərinin topologiyalarının
tətbiq olunmur
fonoqram istehsalçılarına,
efir və kabel yayımı təşkilatlarına,
məlumat bazasının (sui generis) istehsalçılarına,
əmtəə nişanlarına və s.


Sxem 3

Bir məqama da nəzər salaq. Hesab edirik ki, "müəllif"/"müəlliflik" və avtoritet (nüfuz) terminlərinin oxşarlığı heç də təsadüfi deyil. Zaman bu sözlərin yollarını ayırsa da, köklərində duran məna fərqlənmirdi. Bu sözlərin vahid latın mənşəyi, həm də etimoloji mahiyyəti var idi.

Latın dilində *"Auctor"*= "Müəllif*"="Автор"* hərəkətə gətirən subyektin işarəsidir.

"*Auctoritas"*= Avtoritet həmin subyektin xüsusiyyətini (əlamətini) göstərirdi.

Latınlılar *"Auctor*" sözünün mənasını "təməlini qoyan", "bünövrəni təşkil edən", "yaradıcısı", "kök başçısı"; "*Auctoritas"* sözünün mənasını isə yuxarıdakılara qohum olan "məxsusluq", "səlahiyyət", "avtoritet", "hökm" kimi başa düşürdülər.

1. **Adətən,** «müəlliflik» termininin mənası əsərin və ya ixtiranın, kəşfin şəxsə aid olduğunu, onun məxsusluğunu göstərir (yəni II vasitəsilə müəyyənləşdirilir) (sxem 1).
2. **Lakin** «müəlliflik» anlayışı həmçinin fərdi töhfənin sosial-mədəni tanınması institutudur.
3. **Fərdin** elm və mədəniyyətə olan hüquqları insan hüquqları çərçivəsində təmin edilir.
4. **Nəticə** I və II oxşar olsa da **üst-üstə düşmür** (sxem 1).

**Beləliklə,** bəzi suallar yaranır:

1. **"Müəlliflik" və ondan irəli gələn "müəllifliyi qoruma hüququ" nə dərəcədə müəllif hüquqlarının qorunması ilə sinonimdir?**
2. **Müəlliflərin mənəvi və maddi maraqlarının təmin edilməsinə yönəlmiş müəlliflik hüququ və mövcudluğu şəraitində müvafiq sənaye mülkiyyəti hüquqlarının (patent hüququ) təminatı sahəsində si-**

**yasət müəllifliyin adekvat müdafiəsini əks etdirirmi?**

3. **Müəlliflik fenomeni sosial-mədəni, yoxsa müəlliflik hüquq təsviri konseptual modelinin çərçivəsində təmsil etmək daha səmərəli və düzgündür?**

**Bu suallara cavab aşağıdakılarda axtarılmalıdır:**

- **Sosium-Mədəniyyət məkanında (kənardan baxış);**
- **Əqli mülkiyyət (müəllif hüququ və patent hüququ) məkanında (daxildən baxış)**.

Bəllidir ki, elm və mədəniyyətə hüquq insan hüquqlarına dair müxtəlif sənədlərdə, məsələn, Ümumdünya Bəyannaməsinin 27-ci maddəsində öz əksini tapmışdır və burada hər bir insanın "Cəmiyyətin mədəni həyatında sərbəst iştirak etmək, incəsənətdən bəhrələnmək, elmi tərəqqidə iştirak etmək və onun faydalarından bəhrələnmək" hüququ vurğulanır, habelə "müəllifi olduğu elmi, ədəbi və ya bədii əsərlərdən irəli gələn mənəvi və maddi mənafelərininin qorunması" göstərilir.

**Həm mədəni həyatda iştirak, həm də müəllifliyin müdafiəsini əhatə edən vurğulanan bu ikili əhəmiyyətə malik aspekt** sonradan İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktda öz əksini tapmışdır. Belə ki, Paktın maddəsinin 1-ci bəndi, UNESKO Nizamnaməsinin müvafiq maddələri də elm və mədəniyyətə olan hüquqa həsr olunub. BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar Komitəsi isə elm və mədəniyyətə olan hüquqların müəyyən aspektlərin şərhinə dair təlimat işləyib hazırlamışdır və burada **"müəlliflərin mənəvi və maddi maraqlarının əqli mülkiyyət hüququna üstünlük təşkil edən yanaşma ilə mütləq üst-üstə düşmədiyi göstərilir**, həmçinin mədəni müxtəlifliyin əhəmiyyəti və mədəni həyatda iştirak imkanlarının vacibliyi vurğulanır.

Buradan izahı tələb olunan başqa bir sual da ortaya çıxır: **müəlliflik fenomeni sosial-mədəni, yoxsa müəllif-lik hüquq təsviri konseptual modelinin çərçivəsində təmsil etmək daha səmərəli və düzgündür?**

Başqa sözlə, insan hüquqlarının mədəniyyətdə və elmdə keçərli olduğu məkanın fundamental xarakteristikası olan mədəni müxtəliflik çərçivəsindən və "müəlliflik" fenomenini inkişaf etdirən çərçivədən çıxış edək, yoxsa müəllif hüquqlarından irəli gələn Aktorlar – Müəlliflər, Hüquq sahibləri və İstehlakçılar (İstifadəçilər) modelinə əsaslanan çərçivədən?

**Dərhal qeyd etməliyik ki, Mədəniyyətin mədəni müxtəliflik kimi Sosiumla qarşılıqlı münasibətləri dayanaqlı ictimai inkişafın əsas həlqələrindən biridir və bu, sosial-mədəni qarşılıqlı fəaliyyətə bərabər, tolerantlıqdan qaynaqlanan multikultural münasibət şəraitində əldə edilir.** Sosial məkan "Sosium" və mədəni məkan "Mədəniyyət" bir-biri ilə qarşılıqlı əlaqədə olaraq daim kəsişirlər, onlar ziddiyətli də ola bilərlər və prinsipcə onlardan hansının hansına tabeçiliyi vacib deyil, vacib olan odur ki, həm sosial, həm də mədəniyyətin tərkibi sosial-mədəni məkana xas olan elementlərdir. Bu mədəniyyətin və sosiumun sadəcə cəmləşməsinin nəticəsi deyil, hər şeydən öncə – sistem vəhdətinin nəticəsidir və eyni zamanda onlar sosiumun (Sosium) və mədəniyyətin (Mədəniyyət) hissələridir.

Hüquqa gəlincə, o, mədəniyyət institutlarına daxil edilir ki, bütün hüquq normaları mədəniyyət normalarıdır, baxmayaraq ki, bütün mədəniyyət normaları hüquq normalarına çevrilmir. Hüququn cəmiyyətin ümumi mədəniyyətinə daxil olması faktının tanınması, hüquqi dəyərlərin ümumi mədəni ekvivalentlərin yalnız məhdud bir hissəsi olduğunu vurğulayır. Onlar yalnız hüquqi ictimai institutlar tərəfindən verilən səlahiyyətlər vasitəsi ilə leqallaşır.

Lakin Mədəniyyət sosial normativlidir, onun normaları tarixən ilkindir və mədəniyyət normasına çevrilməmiş davranış qaydaları qanuna çevrilə bilməz. Deməli, tamamilə ədalətlidir ki, hüquq sosial mədəniyyətin bir hissəsidir, onun növlərindən biri də hüquq mədəniyyətidir.

Hüquq mədəniyyəti sosial-mədəni məkanın elementi olduğundan onun şəxsiyyət səviyyəsindəki xüsusiyyətləri də bundan irəli gəlir.

Fərd Cəmiyyət və Mədəniyyət məkanında mövcud olan əlaqələri, münasibətləri, bilikləri mənimsəyir və özününkiləşdirir, onun sosial-mədəni kimliyinin və yaradıcılığının təkamülünü və inkişafını formalaşdırır, müəlliflik fenomenini stimullaşdırır.

**Müəllifliyin qorunması hüququnın mahiyyəti nədir?**

**Birincisi,** əqli mülkiyyət hüquqlarından və xüsusən də müəlliflik hüquqlarından fərqli olaraq, **insanın müəllifliyinin qorunmas hüququ insan şəxsiyyətinin ləyaqəti konsepsiyasına əsaslanaraq ötürülə bilməz və onun qorunmasını yalnız yaradıcılar – müəlliflər tələb edə bilər. Korporativ hüquq sahiblərinin müəlliflərin maraqlarını təmsil etməli olduğuna inanmaq düzgün deyil, əksinə səhv olardı.**

**İkincisi,** insanın müəllifliyin qoruma hüququ sadəcə olaraq müəllif hüquqlarının qorunmasının sinonimi və ya istinadı deyil, müəllif hüquqlarının qiymətləndirildiyi əlaqəli anlayışdır.

**Üçüncüsü,** bir insan hüququ kimi müəllifliyin qorunması hüququ hazırda əksər ölkələrin müəlliflik hüququ qanunlarında nəzərdə tutulduğundan bəzi hallarda **daha çox,** bəzi hallarda isə **daha az tələb** edir və beləliklə, müəllif hüququ qanunvericiliyi müəllifliyin qorunmasının hüququnun yalnız bir elementidir.

**Dördüncüsü,** yaradıcıların rəqəmsal mühitdə mənəvi və maddi maraqları ifadə azadlığı və mədəni həyatda iştirak hüquqlarına potensial olaraq qeyri-mütənasib şəkildə təsir etmədən onları qorumaq üçün ən yaxşı yolların tapılması üçün müzakirələrin aparılmasını tələb edir.

**Beşincisi,** "müəlliflik" kateqoriyasının və nəticə etibarı ilə "müəllifliyin qoruma hüququnun təhlili **"Sosium" və "Mədəniyyət" mühitlərinin qarşılıqlı təsiri nəticəsində formalaşan mədəni müxtəliflik məkanında aparılması ümumi hal üçün məqsədəuyğundur.** Hər iki aspekt vahid bütövlüyün komponentlərini təmsil edir (kənardan baxış) və xüsusi hallarda - müəllif hüququ müstəvisinin ayrı-ayrı subyektlərinin davranışının təsviri hesabına formalaşır (daxildən baxış).

## 1. Müəlliflik və “Sosium – Mədəniyyət" məkanı.

Hazırda Mədəniyyətin mədəni müxtəliflik kimi müasir anlayışı, habelə onun Sosiumla qarşılıqlı əlaqəsinin xüsusiyyətləri təsbit edilmişdir.

Mədəni müxtəliflik təkcə mədəni irsin ifadə olunduğu, genişləndiyi və mədəni ifadələrin müxtəlifliyi vasitəsilə ötürüldüyü müxtəlif vasitələrlə, həm də müxtəlif bədii yaradıcılıq növləri ilə, habelə istifadə olunan vasitə və texnologiyalardan asılı olmayaraq mədəni ifadə məhsullarının istehsalı, yayılması, bölüşdürülməsi və istehlakı vasitəsilə özünü büruzə verir.

Sosiumun mədəni fərqlilik subyektləri nöqteyi-nəzərindən təqdim olunan mədəniyyətlərin qarşılıqlı əlaqəsi bir sıra ssenarilər üzrə inkişaf edə bilər. Bu ssenarilər həm də mədəni assimilyasiyanı, o cümlədən marginallaşma və izolyasiya edilmiş separatizmi nəzərdə tutur, lakin onlardan yalnız multikultural inteqrasiyasını təmin edən, sosial-mədəni paritet təşkil edən və qarşılıqlı təsir balansını sabitləşdirən ssenarilərə üstünlük verilir.

Qeyd edək ki, Sosium və Mədəniyyət bir hissə kimi və bütövlükdə əlaqəli deyil, müəyyən bir bütövlüyün bir-birinə nüfuz edən komponentləridir. Əgər “Sosium” fərdləri bütövlükdə və birlik modellərində birləşdirmək yolları nöqteyi-nəzərindən insan həyatına baxışdırsa, “Mədəniyyət” insanın hərəkətləri, yaradılış obyektləri və onların nəsildən-nəslə ötürülməsi nöqteyi-nəzərindən insan həyatına baxışdır. Daha qısa desək, “Mədəniyyət” insanın fəaliyyət tərzi olmaqla, onu “Sosium” adlı məkanda təcəssüm etdirir və bu ictimai münasibətlər həm sərhədləri, həm də fəaliyyət xarakteri və üsullarını təşkil edir. Bu və ya digər şəkildə “Sosium” və “Mədəniyyət” bütövlükdə sistemə fərqli müşahidə nöqtələrdən baxışdır.

Məhz **Sosiumun mədəni müxtəlifliyi sistemli böhrandan çıxmaq üçün şərtdir** və buna görə də ibtidai, monoton cəmiyyətlər üçün bifurkasiya nöqtəsi və ya böhranın dönüş nöqtəsi, bir qayda olaraq, katastrofik modelə gətirib çıxarır.

Müasir sivilizasiyanın sistemli böhranının aradan qaldırılmasında və onun davamlı inkişafında Sosiumun mədəni müxtəlifliyinin xüsusi əhəmiyyətini nəzərə alaraq, 2001-ci il noyabrın 2-də UNESCO-nun Baş Konfransının 31-ci sessiyasında Mədəni Müxtəliflik üzrə Ümumdünya Bəyannaməsini qəbul edilmişdir. Bu bəyannamənin 1-ci maddəsində deyilir: "Mədəniyyət formaları zaman və məkanda dəyişir. Bu mədəni müxtəliflik bəşəriyyəti təşkil edən qruplara və icmalara xas olan xüsusiyyətlərin unikallığı və müxtəlifliyində özünü göstərir". **Mübadilələr, innovasiya və yaradıcılıq mənbəyi olaraq mədəni müxtəliflik insanlıq üçün biomüxtəliflik vəhşi təbiət üçün zəruri olduğu qədər vacibdir.**

Qaçılmaz sual yaranır: sistemin özünün özünütənzimləməsi səbəbindən böhran vəziyyətində etnomədəni sistemdə dinamik tarazlığa arxalana bilərikmi, yaxud sistemdə tarazlığın bərpası prosesini sürətləndirmək üçün dövlət səviyyəsində müdaxilə (bəlkə də bu, arzuolunandır) mümkündürmü?

Gəlin sistem yanaşmasına müraciət edək, burada sübut olunub ki, **sistemlərin davamlı işləməsi və inkişafı onların homogenliyi və heterogenliyi arasındakı dinamik tarazlıq ilə əvvəlcədən müəyyən edilir.** Sinergetik paradiqmaya görə mürəkkəb inkişaf edən sistemin həyat qabiliyyəti onun daxili diferensiasiya səviyyəsindən, informasiya entropiyasından asılıdır. Bu paradiqmanın yaradıcılarından biri olan Uilyam Ross Eşbiyə istinadən onun təklif etdiyi zəruri müxtəliflik qanunu sistemin yaşaması və müxtəlif xarici təsirlərə qarşı müqavimətini, onlara qarşı re-

aksiyalarının adekvat müxtəlifliyinin olmasını tələb edir. Başqa sözlə, çağırış və cavablar simmetrik olmalıdır.

Sinergetikanın sübut etdiyi kimi, sistemlərin fəaliyyətindəki böhranlar həm xarici, həm də sistem mühitində obyektiv olaraq müəyyən edilmiş daimi dəyişikliklərin nəticəsidir, yəni böhranlar sistemli dinamikanın təbii və qaçılmaz mərhələləridir. Bu halda, bifurkasiya nöqtəsi, yəni böhran dönüş nöqtəsi resursların və sistemin bütün imkanlarının aktivləşdirilməsini tələb edir: ya o, yeni çağırışlara uyğunlaşır, ya da mövcudluğunu dayandırır.

Deyiləndən hansı nəticə çıxır?

**Birincisi**, Müəlliflər «Müəlliflik» kateqoriyasının daşıyıcıları kimi Sosiumun tərkibinə daxildir və onlar Mədəniyyət səviyyəsində mədəni müxtəlifliyi formalaşdırmaqdadırlar.

**İkincisi,** mədəni müxtəliflikdə həm Sosiumun təşəbbüsü ilə, həm də Mədəniyyətdən qaynaqlanan qarşılıqlı əlaqəsi onlar arasında baş verən dəyişikliklərlə, keçid prosesinin dayanmasını və sistemin (bütövlüyün) pozulmadığı istənilən tarazlığın əldə olunmasını tələb edir.

**Üçüncüsü,** Mədəniyyətin özünü tənzimləməsi ilə belə bir tarazlığa nail oluna bilər, lakin bu prosesi multikulturallığı təmin edən tədbirlər vasitəsilə sürətləndirən dövlət müdaxiləsi ilə də mümkündür.

Sosiumla Mədəniyyətin qarşılıqlı əlaqəsi prosesini nəzərdən keçirək (sxem 4).

**Sosiumla Mədəniyyətin qarşılıqlı əlaqəsi prosesi**




Sxem 4

Tutaq ki, Cəmiyyətdə bərqərar olmuş (sabitləşmiş) mədəni müxtəlifliyin müəyyən səviyyəsi mövcuddur.

Sosium səviyyəsi (alt sistemi) və Mədəniyyət səviyyəsi ilə başlayan dinamik dəyişikliklər zamanı sistemdə onunla nə baş verəcəyini nəzərdən keçirək.

Sosium səviyyəsində baş verən dəyişikliklər daha dinamik və açıq olmaqla və bununla da Mədəniyyətin inkişafından daha sürətli olmaqla, onun nümayəndələrinin cəmiyyətə gətirdiyi yeni baxışlar, ideyalar, fikirlər, dəyərlər, mənimsənilmiş ənənələr və s. hesabına mədəni müxtəlifliyin **artmasına** töhfə verir. Bu dəyişikliklər qloballaşma, inteqrasiya və yeniliyə rəqəmsal çıxış imkanları, eləcə də mümkün mühacirət (miqrasiya) hesabına əldə edilir. Beləliklə, **Sosiumdan qaynaqlanan mədəni müxtəlifliyin artması ilə**, daha az dinamik olan Mədəniyyət səviyyəsi çox

vaxt bu dəyişiklikləri qəbul etməyə hazır olmur, onlara qeyri-adekvat reaksiya verir və buna görə də Sosiumun təşəbbüsü ilə **mədəni müxtəlifliyin artımını məhdudlaşdırır**.

Digər tərəfdən, əgər mədəni müxtəlifliyin artması, yəni daha geniş spektrli baxışların, təsəvvürlərin, dəyərlərin və s. Mədəniyyət səviyyəsində təşəbbüs göstərilirsə, onda Sosium səviyyəsində mədəni müxtəlifliyin azalması baş verir.

Səbəbi onunla bağlıdır ki, Mədəniyyət səviyyəsinin təklif etdiyi geniş spektrli baxışlar, ideyalar, dəyərlər və digərlərindən bəziləri Sosium tərəfindən qəbul edilmir və rədd edilir, bu da Sosium tərəfindən mədəni müxtəliflik səviyyəsinin azalmasına səbəb olur.

**Bu vəziyyət bütövlükdə sistemin entropiyasının və ya qeyri-müəyyənliyinin artması ilə nəticələnir.**

Bununla belə, sistemdə entropiyanın artması, yuxarıda qeyd edildiyi kimi, informasiya və idarəetmə nəzəriyyəsinin əsas prinsipinin – Eşbinin «Zəruri müxtəliflik qanunu»nun pozulmasına səbəb olur.

Belə çıxır ki, mədəniyyətin özünü tənzimləmə potensialı sistemdə entropiyanın məzmununu tənzimləyərək arzu olunan tarazlığın bərpasına gətirib çıxarana və sosiumu yeni mövcudluq şəraitinə uyğunlaşdırana qədər uzun müddət gözləməliyik, **yaxud mədəni irsin, milli özünəməxsusluğun, tarixi yaddaşın, dəyərlərin, adət-ənənələrin, dilin, milli tarixin, etnik, milli-mədəni kimliyin və ya bütövlükdə etno-mədəni kimliyin yetişdirilməsi də daxil olmaqla, kənardan (dövlət) ənənələrə əsaslanan, yaradıcılığı stimullaşdıran, müəllifliyi dəstəkləyən adekvat qərarlar qəbul etmək lazımdır.**

Sosium və Mədəniyyətin qarşılıqlı əlaqəsi və onların Müəllifliyə və kreativliyə potensial təsirinə dair verilmiş nümunə bütövlükdə belə nəticəyə gəlməyə imkan verir ki, və-

ziyyətin sabitləşməsi informasiya mübadiləsinin zəruriliyini doğurur.

Qeyd edək ki, çoxtərəfli əməkdaşlıq, kooperasiya və informasiya mübadiləsi, bir sözlə, dialoqun səmərəli formaları iştirakçılara fayda gətirir və buna görə də qarşılıqlı faydalı tarazlığa nail olmaq üçün alətlərdir.

Tərəflərin maraqları bir-birinə zidd olmadığı üçün kompromis əldə edilir, bu, sıfır məbləğli oyun deyil, məbləği sıfır olmayan bir oyundur.

## 2. Müəlliflik müəllif-hüquq məkanında.

Bu hissədə biz ənənəvi müəllif hüquqları ilə açıq İnternetin uyğunluğunu qiymətləndirməyə çalışacağıq. Bu, Əqli Mülkiyyət hüquqlarının mühafizəsi üzrə Əqli Mülkiyyət obyektlərinin aktiv şəkildə yönəldiyi İnternet arasında tarazlığın əldə olunması ilə bağlıdır.

Tədqiqatın məqsədləri üçün Tərəflərin 3 sinfini ehtiva edən "İnternet cəmiyyəti" anlayışından istifadə etmək məqsədəuyğundur: Bizi maraqlandıran, öz məqsəd və maraqlarına uyğun olaraq, kibərməkanda qarşılıqlı fəaliyyət göstərən Aktorlar, yəni İstehlakçılar (İstifadəçilər), Müəlliflər və Hüquq sahibləri (bir qayda olaraq, tərkibində əqli mülkiyyət obyektləri olan məhsul və xidmət istehsalçıları).

İnternet cəmiyyətinin məqsədləri müəllif-hüquq qanunvericiliyinin təmin edilməsi məsələlərində onun sərtləşdirilməsi və ya İnternet üçün kibərməkanda müəllif hüquqları ilə qorunan obyektlərdən sərbəst istifadə imkanı yaradılmasına qədər müəlliflik hüququ ilə bağlı əlavə məhdudiyyətlərin və istisnaların tətbiq edilməsi ilə bağlı ola bilər. Bu məqsədlərin daşıyıcıları kibərməkanda fəaliyyət göstərən İnternet cəmiyyətinin əvvəllər formalaşmış Tərəfləri olacaqlar. Bizim vəzifəmiz isə İnternet cəmiyyəti kibərməkanında yarana biləcək münaqişənin həlli üzrə hər üç Tərəfin maraqlarına cavab verə biləcək ağlabatan kompromis tapmaqdır.

“Açıq İnternet – Müəllif Hüquqlarının Təminatı” sistemində açıq İnternet ideyasının daşıyıcıları məhz əsərlərdən sərbəst istifadəyə daha çox üstünlük verən İstifadəçilərdir; əsasən mükafat ödəməklə məzmundan istifadə edən – Müəlliflər və müəlliflərin biznes tərəfdaşları olan, hüquqların təmin edilməsi üzrə tələblərin sərtləşdirilməsinə üstünlük verən Hüquq Sahibləridir. Deyilənlər araşdırmalar nəticəsində öz təsdiqini tapır.

Oyun nəzəriyyəsi kimi müasir riyazi metodlardan istifadə etməklə İnternetdə hüquqların idarə olunması üzrə Azərbaycan layihəsini hazırlayarkən, biz üç aktor olan – Müəlliflər, Hüquq sahibləri və İstifadəçilər arasındakı əlaqəni nəzəri cəhətdən təhlil etdik və nəticədə müəyyən etdik ki, ən davamlı kompromis kompensasiya ödənilməklə, məzmunun pulsuz istifadəsi ilə əldə edilir. Bu da öz növbəsində, hüquqları pozan saytların və ya açıq CC lisenziyalarının bloklanması üzrə qanunvericilikdə nəzərdə tutulmuş normaların bariz nümunələri olan digər iki modelin istifadəsini istisna etmir.

Kompensasiya ödənilməklə, internetdə məzmundan istifadə strategiyasına üstünlük verilməsi bizim yaratdığımız rəqəmsal hüquqların idarə olunması sisteminin nəzəri platformasıdır.

**Digər problem üzərində dayanaq.**

Avrasiya Patent Təşkilatına (APT) 2 kateqoriya idarə daxildir, yəni yalnız sənaye mülkiyyəti ilə məşğul olanlar və bununla yanaşı, Copyright qorunmasını təmin edənlər (müəlliflik hüququ və əlaqəli hüquqlar).

Başqa sözlə, **birincisi**, ƏM-in hər iki ənənəvi qolunu idarə edən idarələr üçün APT "bir ayaq üzərində dayanır".

Belə ki, sənaye mülkiyyəti obyektlərinin qeydiyyatı bütövlükdə (ilkin və mahiyyəti üzrə) ekspertizanın nəticələrinə əsaslanır və **qarşıdurma, əksqoyma** xarakter daşıyır. Eyni zamanda, Copyright obyektlərinin qeydiyyatı (könüllü və qanunla müəyyən olunan) dəstəkləyici xarakter daşıyır, çünki bu obyektlər qanunla qorunur (əlbəttə ki, yaradıcı fəaliyyət və obyektiv ifadə tələbləri nəzərə alınmaqla).

Müəyyən dərəcədə, yalnız ilkin ekspertiza əsasında sənaye mülkiyyəti obyektinin mühafizəsi haqqında qərarın qəbul edilməsi Copyright obyektlərinin könüllü qeydiyyatına bənzəyir.

**İkincisi**, qeydiyyat üçün təqdim olunan materiallar müəlliflik hüququ obyektidir. Müəllif onların surətçıxarmasına icazə verməlidir.

İndi APT **sənaye nümunələrinin** qorunması üçün ərizələrin qəbuluna və onların ekspertizasına başlayıb.

Sual yaranır: müəlliflik hüququ və patent hüququ əsasında obyektin eyni vaxtda mühafizəsi və qorunmasına icazə verilirmi və əgər belədirsə, bunun üçün mexanizmlər nə dərəcədə inkişaf etdirilib? Və bu **üçüncüsüdür.**

Nəzərə almaq çox vacibdir ki, həm müəlliflik hüququ obyekti, həm də sənaye nümunəsi qorunma meyarlarından biri kimi "orijinallığı" nəzərdə tutur.

Dünya dəyişir və əgər əvvəllər, təhlillərdən də göründüyü kimi, paralel qorunmadan imtina olunurdusa və iddiaçı öz ƏM obyektinin hansı formada qorunmasını özü seçirdisə, artıq indi müxtəlif hüquqi rejimlərdə paralel qorunma tendensiyasına maraq var.

Bu müəllif hüquq sahibinin patent sənədinin və ya ixtiranın təsvirinin patent reyestrinə daxil olduğu formada təkrar istehsalına etiraz etmədiyini və eyni zamanda müəlliflik hüququnu özündə saxladığını bəyan etməyini tələb edir.

Bu nə deməkdir?

**Bu o deməkdir ki, müəllif hüquqları sənaye nümunəsi hüquqları ilə paralel olaraq qorunur.**

Bir nümunəyə baxaq. Belə ki, sənaye nümunəsi üçün ərizə verilib və iddia edilən obyekt də müəlliflik hüququ ilə qorunur. **Ərizəçidən müəllif hüququ sahibini müəyyənləşdirmək tələb olunur.**

Müəlliflik hüququ sənaye nümunəsinin qorunması üçün müraciət edən iddiaçıya məxsusdursa, o zaman heç bir problem yoxdur. İddiaçı sənaye nümunəsi üçün müraciətdə müəlliflik hüququ sahibi kimi başqa şəxsi göstəribsə, müəllifin (müəlliflərin) razılığı tələb olunur. Belə razılıq ol-

madıqda, müəllif hüququ sahibi qeydiyyata etiraz etməklə, həm də müvafiq obyektlərdən istifadə üçün hərəkətlərin qarşısının alınmasını tələb irəli sürə bilər (bax: E.P.Qavrilov).

Yuxarıda göstərilənlərdən göründüyü kimi, sənaye nümunəsinə hüquqların qeydiyyatı zamanı **müəlliflik hüququnun mövcudluğuna üstünlük verilir.**

Bununla belə, məhkəmələrdə sənaye nümunəsinə hüquqların pozulması ilə bağlı işlərə baxılarkən, iyerarxiya və ya hüquqların prioriteti doktrinasından da istifadə edilir, **lakin sənaye nümunəsinə hüquqların pozulmasına üstünlük verilir, və əgər hüquq pozuntusu yoxdursa, onda müstəsna müəllif hüquqlarının pozulmasına baxılır. Bu nə üçün belə baş verir?**

Sənaye nümunəsinin qorunması meyarlarından biri "orijinallıq" olduğundan (bu həm də müəllif hüquqlarının qorunması üçün əsas meyardır) bu, məhsulun estetik xüsusiyyətlərinə aiddir. Lakin sənaye dizaynının başqa bir meyarı da var – müəllif hüquqları ilə qorunan obyektlərdə olmayan məhsulun erqonomik xüsusiyyətlərini əks etdirən "yenilik". Buna görə də sənaye nümunəsindən istifadə həm də müəlliflik hüququ obyektindən eyni vaxtda istifadədir və **buna görə də sənaye nümunəsinə hüquqların qorunması avtomatik olaraq, müəlliflik hüququnun qorunmasına gətirib çıxarır.**

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.